# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №12 (7501) | 19 noyabr 2021-ci il | Cümə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan şəhərində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş “Zəfər tariximiz” adlı ümumşəhər tədbiri keçirilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” Sərəncama uyğun olaraq Şirvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Zəfər tariximiz” adlı ümumşəhər tədbiri keçirilib. İlk olaraq Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, İcra Hakimiyyəti aparatının işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları, ictimai təşkilatların nümayəndələri şəhərin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül-çiçək dəstələri düzərək əziz xatirəsinə ehtiramlarını ifadə ediblər. Sonra Heydər Əliyev meydanında şəhər məktəblilərinin hazırladığı 8 Noyabr - Zəfər Gününə həsr olunmuş “Qarabağ Azərbaycandır!” adlı flaşmob təşkil olunub.**






Tədbir Mədəniyyət Mərkəzinin akt zalında pandemiya qaydaları gözlənilməklə davam edib. Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra ölkəmizin müstəqilliyinin, suverenliyinin, konstitusiya quruluşunun, ərazi bütövlüyünün qorunması zamanı Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuzun tarixi torpaqlarımızın azad edilməsi uğrunda apardığı döyüş əməliyyatlarında rəşadət və qəhrəmanlıq göstərərək canından keçmiş bütün şəhid əsgər və zabitlərimizin, mülki şəxslərin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Allahdan şəhidlərimizə rəhmət, ailələrinə səbr dilənib. Sonra “Şuşa bizimdir!”, “Zəfər paradı” filmləri izlənilib



Şirvan şəhər İcra hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək Azərbaycan tarixinin ən qürurverici və şərəfli günü olan Zəfər günü münasibətilə hər kəsi təbrik edib, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyib. Bildirib ki, bir il əvvəl Azərbaycan Respublikasının Prezidenti, Silah Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin elan etdiyi “Qarabağ Azərbaycandır!” çağırışı ilə xalqımız dövlət başçısının ətrafında “Dəmir yumruq” kimi birləşdi. Şanlı Azərbaycan Ordusu 30 ilə yaxın işğalda olan torpaqlarımızı 44 gün ərzində azad edərək ölkəmizin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi. Noyabrın 8-də Qarabağın incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edilməsi Azərbaycanın hərb tarixinə şərəfli, parlaq səhifə kimi yazıldı. Prezident cənab İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Qeyd etdi ki, Vətən müharibəsində qazanılmış Zəfərdən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanılıb. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həmin ərazilərə çoxsaylı səfərləri zamanı yeni infrastruktur obyektlərinin təməli qoyulur, yeni layihələrə start verilir. Şirvan Apellyasiya məhkəməsinin sədri Vəli Abdullayev, Dövlət Təhlükəsizlik Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan Şəhər şöbəsinin rəisi İlkin Məmmədov, Şirvan Şəhər Ağsaqqallar Şurasının sədri Fəxrəddin Rəhimov, şəhid Zülfüqarlı Zeynalın atası Alim Zülfüqarov erməni işğalına və təcavüzünə qarşı 44 günlük Vətən Müharibəsində Qalib Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin Zəfər Yürüşündən, Silahlı Qüvvələrin əsgər və zabitlərinin ağır döyüş şəraitində keçirdikləri uğurlu əməliyyatlardan, əsgər və zabitlər arasında yüksək hərbi vətənpərvərlik sayəsində əldə olunan nailiyyətlərdən, işğaldan azad edilən tarixi torpaqlarımızda Azərbaycan bayrağının ucaldılmasından, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları ilə bağlı dövlətimizin gördüyü tədbirlərdən danışıblar.

Tədbir Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin müvafiq sərəncamları ilə “Suqovuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Laçının azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə”, “Zəngilanın azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “İgidliyə görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunan şəhidlərin ailə üzvlərinə və müharibə iştirakçılarına medallarının təqdim edilməsi ilə davam edib.

## Şirvan şəhərində Zəfər Günü münasibəti ilə Şəhidlər Xiyabanı ziyarət olunub

**Şirvan şəhərində Zəfər günü münasibəti ilə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, İcra Hakimiyyəti aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları, ictimai təşkilatların nümayəndələri, şəhər sakinləri Şəhidlər Xiyabanında 1-ci və 2-ci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman oğulların məzarlarını ziyarət edib.**



Öncə döyüşlərdə itkin düşənlərin xatirəsinə ucaldılan abidənin önünə tər qərənfillər düzülüb, “Şəhid Anası” memorial abidə kompleksi ziyarət olunub. Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Şəhidlər Xiyabanında şəhid ailələri ilə görüşərək belə qəhrəman, cəsur, mərd oğullar böyütdükləri üçün onlara təşəkkürünü bildirib. Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şücaətli Vətən övladlarının yaddaşlarda yaşacaqlarını, illər keçsə də, nəsillər dəyişsə də unudulmayacaqlarını vurğulayıb

Sonda şəhidlərin ruhuna dualar oxunub.

## Şirvan şəhərində 9 Noyabr - Dövlət Bayrağı Günü xüsusi təmtəraqla qeyd olunub

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamı ilə 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur. Şirvan şəhərində Azərbaycan xalqının iftixarı olan Dövlət Bayrağı Günü xüsusi təmtəraqla qeyd olunub. Belə ki, ötən ilin sentyabrın 27-də başlayan və 44 gün ərzində davam edən Vətən müharibəsi Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə nəticələnib. Azərbaycan ordusu 30 ildən sonra işğala son qoyaraq şanlı üçrəngli bayrağımız Qarabağda dalğalandırılıb.**





9 noyabr-Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar “Bayraq yürüşü” təşkil edilib. Yürüşdə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şura üzvləri, İcra Hakimiyyəti aparatının məsul işçiləri, şəhid ailələri,



Vətən müharibəsi iştirakçıları, qazilər, idarə, müəssisə, təşkilat rəhbərləri, ziyalılar, gənclər, şəhər sakinləri iştirak edib. Yürüşdən öncə şəhərin Heydər Əliyev Meydanında Ulu Öndərin abidəsi ziyarət edilib, abidə önünə gül-çiçək dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib. “Qarabağ Azərbaycandır!, “Vətən var olsun!”, “Yaşasın Müzəffər Ali Baş Komandan!”, “Yaşasın Azərbaycan ordusu!”, “Şəhidlər ölməz, vətən bölünməz!” şüarları ilə keçirilən yürüş Şəhidlər Xiyabanından Bayraq meydanına qədər davam edib. Bayraq Meydanında tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub. S.Hüseynov adına 1 nömrəli tam orta məktəbin tarix müəllimi Elnur Novruzovun Dövlət Bayraq günü ilə əlaqədar geniş məruzəsi dinlənlib.

Sonra Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov bayram günü münasibəti ilə şirvanlıları təbrik edib. Bildirib ki, dövlət bayrağımız bizim milli dəyərimizdir. Elə bir dəyər ki, bizə milli qürur, mənlik, ləyaqət, güc, qüdrət verir. Ərazi bütövlüyümüzün, dünya azərbaycanlılarının mənəvi, mədəni birliyinin, vahidliyinin, bölünməzliyinin simvolu, canımız, qanımız olan müqəddəs bayrağımız bu gün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun uğurlu əməliyyatları nəticəsində düşmən tapdağından azad olunan qədim yurd yerlərimizdə dalğalanır. Qeyd edib ki, İşğaldan azad edilmiş torpaqlarımızda şanlı Azərbaycan bayrağının dalğalandırılması qəhrəman hərbçilərimizin Prezident cənab İlham Əliyevə məruzəsi ilə birlikdə xalqımıza sevinc bəxş edib. Vətən müharibəsinin başa çatmasından sonra Azərbaycan dövləti artıq öz bayrağının əzəmətli kölgəsi altında Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq və bərpa işlərinə start verib. Bayraq Günü ilə bağlı öz təbriklərini çatdırmaq üçün söz Şirvan Apellyasiya məhkəməsinin sədri Vəli Abdullayevə verilib. Bildirib ki, müstəqilliyimizin, milli varlığımız və dövlətçiliyimizin rəmzi olan bayrağımız uğrunda canlarını verən, azadlıq, istiqlaliyyət, müstəqillik yolunda fədakarlıq nümayiş etdirən şəhidlərimizin şəhadəti, əməli, niyyəti bizləri bu bayraq altında birliyə, həmrəyliyə, vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və yüksəlişi uğrunda mübarizəyə səsləyir. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi: “Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir”.

Tədbirin rəsmi hissəsi bitdikdən sonra bədii hissəyə keçid alınıb. Sadiq Hüseynov adına 1 nömrəli tam orta məktəbin “Günəş” xor birliyi, 2 nömərli tam orta məktəbinin şagirdləri, Şirvan şəhər Mədəniyyət Mərkəzinin əməkdaşı, operakamera artisti Azər Həsənov, Uşaq Musiqi məktəbin şagirdləri tədbir iştirakçıları qarşısında çıxış ediblər. Sonda torpaqlarımızın müqəddəsliyi uğrunda canından keçən Şirvan şəhərindən olan 157 şəhidin hər birinin əziz xatirəsinə bir şar səmaya yüksəldilib.

Sonra tədbir iştirakçıları Dövlət Bayrağı Günü münasibəti ilə Şəhidlər Xiyabanında 1-ci və 2-ci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman oğulların məzarlarını ziyarət edib.



## Şirvan şəhərinin daha bir qəhrəman oğlu, Vətən müharibəsinin şəhidi Manaflı Əli Əflan oğlunun Anım Günü qeyd edilib

**14.11.2021-ci il tarixdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Millət vəkili İltizam Yusifov, Dövlət Təhlükəsizlik Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan Şəhər şöbəsinin rəisi İlkin Məmmədov, Şəhər İcra Hakimiyyətinin məsul əməkdaşları, şəhidin ailə üzvləri, döyüş yoldaşları, dostları Şirvan şəhər Şəhidlər Xiyabanında Manaflı Əlinin məzarını ziyarət edərək gül-çiçək dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.**

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhidin məzarı önündə çıxış edərək şəhidin ailəsinə başsağlığı verib və 44 günlük Vətən müharibəsində hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən danışıb. Bildirib ki, tarixi Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycan dövləti və ordusu böyük gücə, qüdrətə sahibdir. Müzəffər Ali Baş Komandanımızın «Dəmir yumruğu» tək Azərbaycana deyil, bütün Qafqaza sülh, ədalət, inkişaf gətirdi. Qeyd etdi ki, bu gün özünü qalib ölkənin vətəndaşı hesab edən hər bir azərbaycanlı Ali Baş Komandanla, Vətən uğrunda canından keçən qəhrəman oğullarımızla, əsgər və zabitlərimizlə qürur duyur. Millət vəkili İltizam Yusifov, Dövlət Təhlükəsizlik Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan Şəhər şöbəsinin rəisi İlkin Məmmədov şəhidlərin göstərdiyi qəhrəmanlıqlardan, ordumuzun cəbhədəki uğurlarından söz açıb, Azərbaycan Ordusunun qüdrəti, gənclərimizin Vətən sevgisi, əsgərlərimizin döyüşlərdəki şücaəti, Silahlı Qüvvələrimizin gücü, xalq və ordu birliyi barəsində danışıblar. Qeyd ediblər ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Manaflı Əli də daim qəlblərdə yaşayacaq və onun əziz xatirəsi hər zaman yad ediləcəkdir. Şəhidin valideynləri çıxış edərək övladı ilə qürur duyduğunu bildirib. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edib.

## Vətən müharibəsinin şəhidi Məmmədov Röyal Misil oğlunun Anım Günü qeyd olunub



**Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına şəhid olan Məmmədov Röyal Misil oğlunun Anım Günü boya-başa çatdığı və dəfn edildiyi Şirvan şəhərində qeyd edilib.**

Şəhidin Anım Günü münasibətilə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şəhər Prokuroru Kamal Talıbov, Şirvan Appelyasiya Məhkəməsinin sədri Vəli Abdullayev, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi İlkin Məmmədov, İcra Hakimiyyəti aparatının məsul əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, dostları Şirvan şəhər Şəhidlər Xiyabanında Röyal Məmmədovun məzarını ziyarət edərək gül-çiçək dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Şəhidin məzarı qarşısında çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhidlərimizin əbədi ehtirama layiq olduğunu bildirərək Röyal Məmmədovun atasına Vətənimiz üçün ləyaqətli övlad böyütdüyünə görə təşəkkür edib və Allahdan ona səbir diləyib. Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan söz açaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun, şücaətli oğullarımızın həyatları bahasına torpaqlarımızı işğalçılardan azad etdiyini diqqətə çatdırıb. Şirvanın qeyrətli oğlu şəhid Röyal Məmmədovun keçdiyi qısa və mənalı həyat yolundan bəhs edərək, vətənimizin bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin əziz xatirəsini daim uca tutmağı, vətən uğrunda mübarizənin vacibliyi, tarix yazan qəhrəman şəhidlərin and yerimizə, ziyarət məkanımıza çevriləcəklərini bildirib. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Bu siyasətin davamı olaraq Şirvan şəhərində də şəhid ailələri və qazilərə diqqət və qayğı göstərilməsi yüksək səviyyədə həyata keçirilir. Sonra tədbir iştirakçıları şəhid Röyal Məmmədovun vaxtilə yaşadığı məhəllədə yaradılan xatirə lövhəsinin qarşısında şəhidin keçdiyi ömür yolundan, mərdliyindən, şücaətindən söz açıblar. Şəhidin atası Misil Məmmədov çıxış edərək övladı ilə qürur duyduğunu bildirib. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, doğma yurdumuzun, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda ölümün gözünə dik baxan Röyal Məmmədovun döyüşlərdə göstərdiyi igidlik dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirilib. Şəhid əsgər Röyal Məmmədov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub

## Şirvanda 8 noyabr - Zəfər Günündə ağacəkmə aksiyası keçirilib

**Xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə 8 noyabr-Zəfər Günündə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirinin iştirakı ilə əsaslı yenidənqurma işləri tamamlanma üzrə olan Şirvan şəhəri Məhəmməd Füzuli adına Mədəniyyət və istirahət parkında ucaldılmış "Zəfər" abidəsinin ətrafında birinci və ikinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə ağacəkmə kompaniyası keçirilib.**



Ağacəkmə aksiyasında Ekologiya və Təbii Sərvətlər Naziri cənab Muxtar Babayev, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları və könüllülər iştirak edib. Abidə ətrafında Şirvan şəhərindən olan 157 şəhidin hər birinin şərəfinə ağac əkilib, parkın meşə zolağında isə 2500 sərv və şam ağacları əkilmişdir.

## Kollecdə 8 Noyabr - Zəfər Günü ilə əlaqədar tədbir

**Şirvan Şəhər İcra Hakimiyyətinin və Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin birgə təşkilatçılığı ilə"8 NOYABR ZƏFƏR BAYRAMI" devizi altında ədəbi -bədii kompozisiya təşkil olunub.**

Tədbirdə şəhid ailələri, qazilər, şəhər ictimaiyyətinin nümayəndələri, müəllimlər və tələbələr iştirak edib. Öncə qonaqlar kollec tələbələrinin əl işlərindən və rəsmlərindən ibarət sərgi ilə tanış olublar.

Tədbir kollecin akt zalında davam edib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra, ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması zamanı rəşadət və qəhrəmanlıq göstərərək canından keçmiş bütün şəhid əsgər və zabitlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Allahdan şəhidlərimizə rəhmət və ailələrinə səbr dilənib.

Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva tədbirdə çıxış edərək dedi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmri ilə ötən ilin 27 sentyabrında ordumuz əks-hücüma keçdi. 44 gün ərzində işğal altında olan torpaqlarımız erməni faşistlərindən azad olundu. Şanlı ordumuz ölkəmizin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi. Biz bu zəfərə görə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə minnətdarıq. Şəhidlərimizin ruhları qarşısında baş əyirik. Qazilərimizə, ümumilikdə bütün əsgər və zabitlərimizə cansağlığı arzulayırıq. İnanırıq ki, bərpa olunmuş sərhədlərimiz bundan sonra daha ayıq-sayıq qorunacaq. Düşmən ayaqları bir də torpaqlarımıza dəyməyəcək. Xalq-iqtidar birliyi bundan sonra daha möhkəm olacaq.

Kollecin direktoru, filologiya üzrə fəlsəfə doktoru Barxudar Barxudarov çıxışında dedi ki, ölkə Prezidenti, Müzıffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz 44 gün ərzində 30 ilin həsrətinə son qoydu. Ermənistanın təcavüzkar qüvvələri darmadağın edildi. İşğal altında olan torpaqlarımız əsl sahiblərinəbizlərə qaytarıldı. Böyük Qələbə Azərbaycan dövlətinin hərbi gücünün təzahürüdür. İkinci Qarabağ müharibəsi dövlətimizin gücünü, müasirliyini də nümayiş etdirdi.

Bu gün qürurla deyə bilərik ki, Azərbaycan Ordusunun təcrübəsi və hərbi strategiyası beynəlxalq ekspertlər tərəfindən öyrənilir. Biz Müzəffər Ordumuzla fəxr edirik.



Sonra digər çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən və Azərbaycanın qələbəsi ilə başa çatan Vətən müharibəsində vətənimizin ərazi bütövlüyü uğrunda Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, o cümlədən Şirvan gənclərinin göstərdiyi qəhrəmanlıq və şücaətlərdən danışıblar. Rəsmi hissə bitdikdən sonra Kollecin Tərbiyə işləri üzrə direktor müavini Aidə Əsədova və Mülki Müdafiə üzrə mühəndis Sevda Həsənovanın birgə hazırladığı ədəbi-bədii kompozisiya, kollecin məzunu Azər Həsənovun "Azərbaycan" mahnısını ifası ilə başlandı.

Əməkdar müəllim Mehran Əhməd qızının 44 günlük Zəfər tariximizdən ilhamlanaraq cənab Prezident İlham Əliyevə həsr etdiyi "Azərbaycan xalqının Generalissimusu" essesi oxundu.

3-cü kurs tələbəsi Şəhanə Zeynallı "Ulu Öndər" , Razim Allahverdiyev özünün yazdığı " Mən Azərbaycanlıyam!", Kollecin məzunu Nahidə Məmmədova öz yazdığı "Gözün aydın, Qarabağım!" adlı şeirlərini səsləndiriblər.

Kollecin xor kollektivinin, 1-ci kurs tələbəsi Lamiyə Zaidova və Tural Abdullazadənin ifasında "İgid əsgər, möhkəm dayan!", "Millətim", "Ana, mən şəhid oldum!" mahnıları səslənib.1-ci kurs tələbəsi Kərimli Vəsilənin ifa etdiyi " Sarı gəlin" rəqsi tədbirə rəng qatıb.Kollecin məzunu Qələmnaz

Mirzəyevanın hazırladığı 44 günlük Zəfər tariximizə və Şəhidlərə həsr olunmuş videoçarxlar nümayiş olunub.

Tədbir Azər Həsənovun ifasında "Yaşa, Azərbaycan!" mahnısı ilə yekunlaşıb.

Kollec tələbələri Gülmirə Mikayılova, İqbal Əliyev, Sevinc Mirzəyeva və Sərdar Səmədzadənin aparıcılığı ilə baş tutan tədbir uğurla sona çatıb.

## "44 günlük Zəfər tariximiz"

**Şirvan şəhər İcra Hakimiyyəti və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "44 günlük Zəfər taiximiz" adlı tədbir keçirildi.**



Tədbirin rəsmi hissəsi Azərbayacan Respublikasının Dövlət himni ilə açıq elan edildi və Qarabağ müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Öncə Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva geniş məruzə ilə çıxış etdi.

Qarabağ döyüşlərində iştirak etmiş Şirvan şəhər Mədəniyyət Mərkəzinin bədii rəhbəri Ümüd Quliyev Mədəniyyət işçiləri Həmkarlar Təşkilatinin Fəxri-Fərmanı ilə təltif olunduqdan sonra tədbirin bədii hissəsinə keçildi.

Tədbirin bədii hissəsi Rövşən Babayevin ifasında "Xarı bülbül" şerinin səsləndirilməsi və simvolik olaraq "Xarı Bülbül"ün səhnəyə yerləşdirilməsi ilə başladı.

Daha sonra Mərkəzin əməkdaşları Azər Həsənov , Ümüd Quliyev, Sabit Abdullayev və Firuzəxanım Abbasova vətənpərvər mahnılar ifa etdilər.

Rejissor- ssenarçi Elşən İsmayılın təqdimatında "Bütöv Azərbaycan " kompozisiyası nümayiş olundu. Şirvan şəhər Uşaq Musiqi Məktəbinin şagirdi Məhəmmədin ifasında "Qarabağ şikəstəsi" səsələndirildi.

Daha sonra Şirvan şəhər 13 nömrəli tam orta məktəbin şagirdləri ədəbi-bədii kompozisiya ilə çıxış etdilər.

Şirvan şəhər Mədəniyyət Mərkəzinin "Gur" rəqs ansamblının ifasında "Cəngi" rəqsi tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Sonda Mərkəzin direktoru Nəmidə Namini tərəfindən bir neçə gənc Fəxri-Fərmanla təltif olundu.

## Vətən müharibəsi şəhidləri



# MƏHARƏTİİ DÖYÜŞÇÜ - MƏHARƏT HƏSƏNOV

**Həsənov Məharət Ramil oğlu 1987-ci il oktyabrın 25-də Şirvan şəhərində təvəllüd tapır. 1994-cü ildə Şirvan şəhərindəki Mübariz İsrafilov adına 18 nömrəli məktəbin birinci sinfinə daxil olur. İdmana böyük marağı oldugundan "yunan-Roma" güləşi növü ilə məşğul olur. Gənclər arasında keçirilən yarışlarda iştirak edən M.Həsənov respublika üzrə dəfələrlə fəxri kürsüyə qalxır. O, eyni zamanda bərbər peşəsinə də yiyələnir. Xalqa mədəni xidmətlər göstərən qəhrəmanımız 2006-cı ildə həqiqi hərbi xidmətə cağırılır. Xidmətini Tərtər rayonundakı "N" saylı hərbi hissədə həyata keçirir. General Polad Həşimovun əsgəri olan Məharət həm də manqa komandiri kimi xidmət göstərir. Xidməti dövründə üc aylıq "Atıcılıq" hərbi ixtisas kursu da keçir və 2008-ci ildə ordudan tərxis edildikdən sonra Şirvana qayıdan Məharət Həsənov yenidən idmanla məşğul olur və bərbər peşəsini davam etdirməyə başlayır. Ailədəki dörd övladdan biri olan M.Həsənov, atası dünyasını dəyişdiyi vaxtdan, anası Xurma ilə birgə ailənin qayğılarını çiyinlərində daşıyır.**

2016-cı ilin Aprel döyüşlərindən sonra ermənilərin törətdiyi silsilə təxribatlar Məhارəti ciddi narahat edir. General Polad Həşimovun şəhidliyindən sonra isə düşmənə olan sonsuz nifrəti daha da artır. Müraciətdən sonra Məharət Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan şəhər Şöbəsində qeydiyyatdan keçir.

Vətən müharibəsinin başladığı 2020-ci ilin 27-si sentyabrında düşmənə qarşı əks-hücum əməliyyatına 29-u sentyabrdan yollanan Məharət cəbhənin Füzuli istiqamətindən başlayır. Füzuli, Cəbrayıl, Ağdərə, Hadrut istiqamətində işğalçılarla şücaətlə mübarizə aparır. O, sərrast atıcı olaraq düşmən mövqelərinə sarsıdıcı zərbələr endirir. Erməni hərbçilərini məhv etmək, vətəni bütövləşdirmək, azad vətən torpaqlarına üçrəngli Azərbaycan bayrağını taxmaq arzusu ilə döyüşür. Məkrli erməni əsgərlərinin ayaqlarının torpaqlarımızdan kəsilməsi üçün var qüvvəsini səfərbər edən Məharət Füzulinin bir neçə kənd və qəsəbələrinin işğaldan azad edilməsində, mənfurlarla ölüm -dirim mübarizəsi aparır. o, 2020-ci ilin 14-ü oktyabr tarixində- Vətən Müharibəsinin on yeddinci günündə azğın düşmənlə vuruşda, Füzulidə gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olur.

Vətən, torpaq, millət, el yolunda şəhadətə yüksələn Məharət Ramil oğlu Həsənovun tabutu oktyabrın 15-i doğulduğu Şirvan şəhərinə gətirilərək böyük izdihamla Şirvanın Şəhidlər xiyabanında torpağa tapşırılır.

M.Həsənovun xatirəsi daim əziz tutulur. Ramil adlı bir oğul yadiğarı olan şəhidin, bir vaxtlar yaşadığı M.Ə.Rəsulzadə küçəsi, ev 17/102 nömrəli mənzilin qarşısında xatirəsi əbədiləşdirilib. Burada Xatirə guşəsi və Ehsan bulağı tikilib. Ailəni Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və Şirvan Bələdiyyəsinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları tez- tez ziyarət edirlər.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamı ilə şəhid Məharət Ramil oğlu Həsənov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasina görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

**HƏMİDƏ FAZİLQIZI,
AZƏRBAYCAN JURNALİSTLƏR BİRLİYİNİN ÜZVÜ**

# PƏNCƏRƏNƏ DÜŞƏN KÖLGƏ, MƏNƏM ANA!..

## Şuşa uğrunda gedən döyüşdə şəhid olan igidimiz

**Vətən torpağına sevgi onun təbiəti, torpağının bərəkəti, yaxın uzaqlığı, tarixi ilə ölçülməz. Vətən elə Vətəndir. Vətənin hər qarış torpağı bizim üçün əziz və müqəddəsdir, hər güşəsi bağrımızın başındadır. Bununla belə nə sirrdirsə, Şuşanın, hər bir dünya azərbaycanlısının düşüncəsində bir başqa yeri var. Bu düşüncənin səbəblərini müəyyən etmək o qədər də sadə deyil. Şuşanı belə özünəməxsus edən bəlkə də təfəkkürümüzdəki Vətən anlayışının bir çox məqamlarının, milli - mənəvi dəyərlərimizin bu şəhərin qədim tarixində, füsünkar təbiətində, mədəni mühitində öz əksini tapmasıdır.**




Şuşa özlüyündə böyük Vətənimizin sıldırım dağların ucalığında qərar tutmuş bir şəhər boyda abidəsidir, insanların burada doğma yurdun şərəfinə ucaltdıqları məbəddir. Bütün yollar indi bizi bu məbədə-Şuşaya aparır. Şükür qovuşdurana, ümidlərimizin çin olduğu günləri görə bildik. Üçrəngli bayrağımızın yenidən Şuşada dalğalandığı günü yaşamaq nəsibimiz oldu. Mədəniyyətimizin, ruhumuzun paytaxtı Şuşa 28 ildən sonra öz sahibinə qovuşdu, ayrılığa son qoyuldu. Azərbaycan igidləri dünyanın müharibələr tarixində yeni bir tarixə çevrilən qəhrəmanlıqları ilə ümidlərimizi, arzularımızı, Şuşa xəyallarımızı gerçəkləşdirdilər.

Belə igidlərimizdən biri də Ramil Vüqarəddin oğlu Əliyevdir. Ramil Əliyev 1996-cı il dekabrın 9-da Hacıqabul rayonunda anadan olub. 2015-ci ildə həqiqi hərbi xidmətə yollanan Ramil «N» saylı hərbi hissədə xidmət etmişdir. Ramil həqiqi hərbi xidmət dövründə snayperçi, pulemyotçu ixtisaslarına yiyələnmiş, mükəmməl, sərrast atıcı kimi püxtələşmişdir.

Vətən müharibəsinin başlandığı ilk günlərdə 2020-ci il sentyabrın 27-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə düşmən təxribatlarına qarşı ordumuzun əks- hücüm əməliyyatlarında iştirak etmişdir. Cəsur eloğlumuz, igid döyüşçü Ramil Əliyev cəbhənin ən qaynar nöqtələrində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları ərazilərində yağı düşmənə qarşı mərdliklə vuruşmuş, bacarıqlı snayperçi və pulemyotçu kimi dəqiq, sərrast atəşləri ilə düşmənin onlarla canlı qüvvəsini, döyüş texnikasını, silah- sursat bazalarını məhv etmişdir. Vətən torpaqlarını işğaldan azad etmək yanğısı, düşmənə sonsuz nifrəti Ramili ağır döyüşlərdə əsil cəngavərə çevirmişdi. Onun qəhrəmanlığı müqəddəs Şuşamız uğrunda əlbəyaxa döyüşlərdə xüsusilə qabarıq surətdə üzə çıxdı. Ramil digər döyüş yoldaşları ilə birlikdə əməliyyat şəraitindən irəli gələrək demək olar ki, qollarının gücü ilə süngü-bıçaqla vuruşmaqla Şuşanın alınması uğrunda şəhid olmuşdur. İgid əsgərlərimiz o sıldırım qayalara dırmaşaraq əllərində silah düşmənin üzərinə aslan kimi şığıyaraq bu müqəddəs şəhəri, cənnət güşəmizi fəth etmişlər. Şuşa bundan sonra bizim üçün Azərbaycanın hər qarışı uğrunda canından kesməyə hazır olan və bunu Ramil Əliyev kimi şəhadəti ilə sübuta yetirən övladlarımıza ucalan şəhər abidəsidir. Bu mənada Azərbaycan Prezidentinin Şuşanın azad olunması müjdəsini xalqımıza Şəhidlər Xiyabanından-Əbədi Məşəl abdəsi önündən çatdırması da Vətən uğrunda canını fəda etmiş şəhidlərimizə əbədi sevginin ifadəsi kimi böyük rəmzi mənası ilə tarixə yazıldı.

İgid eloğlumuz Ramil Vüqarəddin oğlu Əliyev 2020-ci il noyabrın 5-də Şuşa şəhəri uğrunda ağır döyüşdə qəhrəmanlıqla şəhid olmuşdur. Şəhidimiz hələ körpə ikən, 2000-ci ildə atası faciəli surətdə dünyasını dəyişib, ailənin ağırlığı şəhidimizin anası İsmayılova Xuraman Əli qızının üzərinə düşüb. Xuraman xanım Şirvan şəhər mərkəzi xəstəxanasında uzun müddətdir ki, tibb bacısı işləyir. O 44 gün ərzində müharibədə yaralanıb gələn qazilərimizə evə getmədən fasiləsiz olaraq ana şəfqəti ilə tibbi yardım göstərib.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə Şirvan şəhər sakini, şəhid Ramil Vüqarəddin oğlu Əliyev ölümündən sonra «Vətən uğrunda», «Cəbrayılın azad edilməsinə görə», «Qubadlının azad olunmasına görə», «Cəsur döyüşçü» medalları ilə təltif olunmuşdur. Şəhidin anası Xuraman İsmayılova, bacısı Gülşənlə söhbət edirik. Xuraman xanım Ramildən söz açaraq göz yaşlarını saxlaya bilmir. Deyir: minbir əziyyətlə böyütmüşdüm, evin tək oğlu idi, ancaq ərköyün deyildi, zəhmətkeş, qoçaq, cəsur uşaq idi. Mənə deyirdi, ana qorxma, döyüşlərdən qalib çıxıb yanına gələcəyəm, bacımdan muğayat ol! Şəhid olandan sonra Ramil iki dəfə yuxuma girib, gülümsəyib mənə pıçıldayır. Yuxuda mənə deyir: «Sənə demədim ki, qorxma! Nə olub, niyə özünü üzürsən, mən qayıdacağam! Beləcə, şəhid oğlum Ramilin ruhu elə bil mənimlə danışır, mənə pıçıldayır: ana başını dik tut, sən şəhid anasısan!».

**Bir şeirdə deyildiyi kimi-
Pəncərənə düşən kölgə, mənəm ana!
Ürəyində qalan bəlkə? Mənəm ana.
Bu el, elat, bütün ölkə mənəm ana.
Mən həmişə yanındayam,
Mən yanına qayıtmışam.**

Şəhid Ramil Əliyevin anası Xuraman Əli qızı İsmayılova yaşadığı Şirvan şəhərində təkcə onun ailəsinə deyil, bütün şəhid ailələrinə diqqət və qayğı ilə yanaşan Şirvan şəhər İcra hakimiyyətinin başçısı İlqar Abbasova minnətdarlıq hisslərini dilə gətirdi. Sonda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yaralı həbiçilərimizlə görüş zamanı söylədiyi bir fikri oxucularımızın nəzərinə çatdırmaq istərdim:

- Müharibənin müqəddəratını, Böyük Qələbəni-zəfəri texniki vasitələr deyil, Azərbaycan əsgərləri, zabit və gizirlərimiz, torpaqlarımızın işğadan azad olunması üçün canını, qanını fəda edən şəhidlərimiz, qazilərimiz qazandılar. Allah bütün şəhidləriimzə rəhmət eləsin!»

**Nazim ZEYNALOV**

# Türkiyə və Azərbaycan hər zaman bir-birinin yanındadır

**Postmünaqişə dövründə Qarabağ artıq Azərbaycan və Türkiyə üçün yeni bir siyasi mərkəzə çevrilib. Bu səfər Qarabağın ölkələrimiz üçün önəminin nə olduğunu bütün dünyaya nümayiş etdirir. Zəngilanın Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatında bu hadisəni əsl qardaşlıq və dostluq nümunəsi adlandıraraq bildirmişdir:**



"Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi... Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur... Həm Şuşada, həm də bu gün Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq".

Qələbəmizdən bir il keçdiyi az bir müddətdə işğaldan azad olunmuş torpaqlarımızda böyük quruculuq və bərpa işləri sürətlə davam edir. Bu gün işğaldan azad edilmiş ərazilərdə ən müasir texnologiyaların əsasında olduqca qısa zamanda genişmiqyaslı bərpa və yenidənqurma tədbirlərinin həyata keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin, Azərbaycan dövlətinin gücünün göstəricisidir. Azərbaycan artıq 8-9 aydır ki, post-müharibə dövrünün reallıqlarını yaşamaqdadır. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə müasir yol-nəqliyyat infrastrukturunun qurulması ilə bağlı layihələrin icrası intensiv şəkildə davam etdirilir. Bu baxımdan Füzuli Beynəlxalq Hava Limanının açılması qələbəmizin davamıdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad edilmiş torpaqlarımıza ikinci səfəri bir daha göstərir ki, 44 günlük İkinci Qarabağ müharibəsində qardaş Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi ilə tarixi Qələbəmizə necə nail olduqsa, bu gün də işğaldan azad edilmiş əraziərimizə səfəri ilə soydaşlarımızın Böyük Qayıdışına yönələn addımların reallaşmasına öz töhfələrini vermək istəyini nümayiş etdirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün regional məsələlərdə, hətta dünyada Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə artıq dünya çatında böyük gücə çevrilib və heç kim Türkiyəyə öz iradəsini diktə edə bilməz. Öz milli ləyaqətini, xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən Lider bu gün Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın dostluğu və liderliyi yalnız iki ölkənin münasibətlərində deyil, regionda və dünyada cərəyan edən proseslərə təsirində də özünü göstərir. Hər iki Lider öz əməli fəaliyyətləri ilə milli maraqları hər şeydən üstün tutduqlarını və qətiyyətlə qoruduqlarını nümayiş etdirirlər. Bu gün öz liderlərinin sayəsində Türkiyə və Azərbaycan böyük uğurlar qazanır, bütün dünyada prinsipial, cəsarətli, düşünülmüş siyasət yürüdən ölkələr kimi tanınır və qəbul edilirlər.

Hər zaman Azərbaycanın yanında olan, ölkəmizə dost və qardaş ölkə Türkiyə də işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işlərində iştirak edir. 44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də həmrəylik göstərir. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibə bitdikdən sonra işğaldan azad edilmiş Şuşa şəhərinə səfəri və orada imzalanan Şuşa Bəyannaməsi iki qardaş, dost ölkənin əlaqələrinin möhkəm təməl üzərində qurulmasının təzahürüdür. Türkiyə Prezidentinin Füzuliyə və Zəngilana səfəri mövcud əlaqələrin davamlığının göstəricisidir. Türkiyə Prezidentinin Füzuli Beynəlxalq Hava Limanında ilk rəsmi qarşılanması tarixi hadisəyə çevrildi. Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində qardaş ölkənin prezidentinin iştirakı dünyaya daha bir mesaj oldu. Zəngilanın Ağalı kəndində Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış etdikləri zaman Cənab İlham Əliyev demişdir: "Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır".

**Fəxrəddin Rəhimov,
Şirvan Şəhər Ağsaqqallar Şurasının sədri**

# YAQUB SALMANIN YENİ KİTABI BARƏDƏ DÜŞÜNCƏLƏRİM

**Şirvan mətbuatına öz qələm inciləri ilə töhfələr verən gözəl qələm sahibi, nasir və şair Yaqub Salman yaradıcılığı ilə tanışlığım, 1993-1997-ci illərdə Şirvan şəhərində çıxan "İŞIQ" ictimai-siyasi qəzetinin redaksiyasında, ədəbi işçi-müxbir işlədiyim illərdən başlayıb. Yaqub müəllimin redaksiyanın "Məktublar şöbəsi"nə daxil olan qələm izlərinin məhsulu olan, müxtəlif mövzuları əhatələyən məqalə və şeir nümunələri ilə tanış olduqca, müəllifə olan rəğbətim və yaradıcılığına olan marağım da həmin vaxtlardan çoxalmağa başlayıb. Yaqub Salmanın məqalələrindən fərqli olaraq şeirlərinin daha cox diqqətimi cəlb etməsi də təsadüfi olmayıb. Belə ki, hələ o vaxtlar şairin nəzmə çəkdiyi sözlərini oxuduqca hər bir sətrində, hər bir bəndində torpağa, elə bağlılığını hiss etdikcə, ürəyimdən bir səs gəlirdi:**



-Kaş Yaqub müəllimin şeirlərindən ibarət bir toplusu olaydı. O vaxtdan illər kecib, amma Yaqub Salman yaradıcılığına olan marağım, zərrəcə olsun azalmayıb. Bir vaxtlar çalışdığım , mənim üçün Böyük Həyat Məktəbi olmuş Şirvan mətbuatından uzaqlaşsam da, "İŞIQ" qəzetinin səhifələrində Yaqub Salman poeziyasını böyük həvəslə izləmişəm.

Düzdür, bu gün bizi "İşıq"lı günlərimizdən xeyli zaman fasiləsi ayırır. Artıq mən, jurnalist fəaliyyətimi Bakıda - "Azərbaycan" Nəşriyyatında davam etdirirəm. Yaqub müəllim isə yaradıcılığının bəhrini-barının ən çoxunu bu gün də doğma şəhərimiz Şirvanda "İşıq" qəzeti vasitəsi ilə oxucularına təqdim etməkdədir. Ötən illər ərzində Yaqub Salman biri- birinin ardınca bir deyil, iki deyil, üç deyil , bir- birindən oxunaqlı düz on ikinci kitabını çap etdirib. Stolüstü kitablarımın sırasına onun"12-ci uğur"u da daxil olub. " 12-ci uğur" kitabına müəllif Yaqub Salman, ( Salmanov Yaqub Süleyman oğlu) hər zaman olduğu kimi, yenə də poeziyadan əlavə olaraq nəsr əsərlərini də kitaba daxil edib. Bir neçə bölməni əhatələyən "12-ci uğur" kitabının "Gördüyüm, eşitdiyim, bildiyim" bölümündə müəllif, yaxın dostu Şirvan şəhərindəki Yağ-Piy Kombinatının sabiq direktoru Pirverdi Məmmədova və digər tanışlarına-dostlarına ünvanladığı sənədli hekayələrini də çap etdirib.

Kitabın birinci fəsli hekayələr və xatirələr toplusundan ibarət olsa da, növbəti fəsillərdə yenə, Yaqub Salmanın zehnindən süzülüb-gələn, gələmə alınaraq nəzmə çəkilən söz xəzinələri ruha qida vermək üçün qatarlanıb.

"Poeziya yarpaqları" bölümündə ilhamlı şair kimi tanıdığım Yaqub müəllim təbiətə, kainata, bəşər övladlarına, balacalara, zamanını əhatələyən hadisələrə-o cümlədən, Qarabağa, təzadlı dünyamıza həsr etdiyi şeirlərini toplayıb.

Şairin "12-ci uğur" kitabını mütaliə edən həssas bir oxucu kimi, həmin şeirlərlə tanış olduqca, bir daha əmin oluruam ki, şair- nasir Yaqub Salman bu kitabını yazarkən qələmini əlinə heç də təsadüfən almayıb. Müasir Azərbaycan ədəbiyyatına yeni nəfəs, yeni duyum gətirən müəllif, həm də bu kitabda Azərbaycanın Güneyinə, Qüzeyinə, adət və ənənələrinə, qayda və qanunlarına , coğrafi mövqeyinə, tarixinə yaxından bələd olan əsil bir vətəndaş olduğunu isbat edib. Xəyal dünyasından "qopardığı" təxəyyülləri ilə, reallığın daha bir vəhdətini yaradır şairnasir. Zəngin ana dilimizin poetik imkanlarından bəhrələnən müəllif, istənilən bir çox mövzuda fikrin, fəhmin, yaddaşın tozunu silkələyərək, ömrünün aqil çağlarında yaddaşının xatirələrinə bir daha ziya salmağa çalışıb.

Hər bir şair kimi Yaqub Salmanın da bu kitaba daxil etdiyi, həsrətin kök saldığı, hicranın at oynatdığı saf eşqinə, unuda bilmədiyi ilk məhəbbətinə yazdığı, ürəyində köz bağlayan hicranlı-həsrətli- intizarlı şeirləri də yer alıb. Şair ötən **günləri**ni köks ötürə-ötürə belə yada salır.

*Boyun həmin boydu, səsin o səsdi.*
*Amma, ürəyinin odu görünmür*
*Dünən deyərdim ki, "öldürmə bəsdi"!*
*Bu gün, sözlərimin dadı görünmür!*
*Yalancı təbəssüm, boya gülüşlər...*
*Üzümə "can" demək , can demək deyil!*
*Canım, üzəvari soyuq baxışlar*
*Yaralı könlümə, bir kömək deyil!*
*Sənincün gecələr yuxusuz qalıb,*
*Əbəsdir şeirdən divar hörməyim!*
*Amansız bir fikir üstümü alıb,*
*Mən hara gedim ki, səni görməyim!?*

Dərin mənalar kəsb edən və ilham mənbəyindən güc alan digər poeziya nümunələri ilə tanış olduqca Yaqub Salman yaradıcılığında fəlsəfi poeziya nümunələrinin kifayət qədər olduğunu da görürəm." 12-çi uğur" kitabından seçdiyim şeirlərlə üz-üzə dayandıqca bir daha əmin oluram ki, Yaqub Salman həmin şeirləri qələmə aldığı anlarda vətənpərvər bir şairdən başqa həm də, qələmini silaha cevirən müsəlləh bir əsgər olub.

Şairin vətənpərvərlik mövzusunda ərsəyə gətirdiyi şeirlər olduqca oxunaqlıdır.

Kitabın "Vətən, mənə oğul de!" bölümündə yer alan "Qara geymə, Ana", "Vətən anadan qabaq", "Əsgər","Azad torpaq, bütöv Vətən", "Bayraq", "Ermənilərə mesaj", "Qarabağ bizimdir" sərlövhəli şeirləri vətəndaş- şairin başı bəlalar çəkmiş Vətəninin yarasına qoyduğu məlhəm, düşmənə, erməniyə nifrətdir.

*-Dağıtmısan Vətənimin yarısını,*
*Öldürmüsən cavanını, uşağını,*
*Qocasını, qarısını!*
*Şişə taxdın, bu torpağın tifilini, körpəsini!*
*Eşitmədi bu kar dünya,*
*Anaların haqq səsini, naləsini!*
*Sinəmizə dağ çəkibsən,*
*Sındımısan əsirləri, girovları,*
*Utan barı! Utan barı!!!*
*("Ermənıyə mesaj") şeirindən*

2020-ci ilin 27 sentyabrında Silahlı Qüvvələrimizin erməni işğalçılarına qarşı əks- hücum əməliyyatının başladığı Vətən Müharibəsi günlərində Yaqub Salmanın qələmə aldığı şeirlərindən alqış, qələbə nidaları səslənir..

Kitabın "Qarışıq şeirlər " bölümündə, adından bəlli olduğu kimi. şairin müxtəlif səpkili və olduqca maraqlı şeirləri toplanıb. Yaqub Salmanın "Qəriblik" şeirini mütaliə edərkən bəxtinin, qədərinin, taleyinin, həyatının doğulduğu Şəmkir elindən aralı düşdüyünə görə gizli-gizli xiffət edərək yaşadığını duyur, hiss edir və görürük. Yaşadığı diyara "Yurdum-məskənim" deyil, "Yuvam" deyən şair bəxtinə xiffətli günlərin düşdüyünü də şeirlərində etiraf edib.

Elindən aralı düşsə də, ta gənclik illərindən bu günə qədər Şirvanda çalışaraq yaşayan-yaradan şair şirvanlılara qaynayıb -qarışıb. Yazdığı kitablarında toplanan maraqlı və düşündürücü, ilhamverici şeirləri ilə hər bir oxucusunun əziz qonağı olan Yaqub Salmanın yeni çapdan çıxan "12-ci uğur" kitabına daxil edilən "Sahil", "Sevgi", "Sədan gəlsin", "Ay gözəl", "Anadan muğayat ol" , "Qəm, fikir, düşüncə", "Son deyil" başlığı altında oxucularına təqdim etdiyi şeirlər də oxunaqlıdır. Mən, həm də bir oxucu olaraq Yaqub Salmanın ruha qida verən şeirlərinin təsiri altında qeydlərimi apararkən bir daha əmin oluram ki, dünyaca tanınmış Nizamiləri, Füzuliləri, Səmədləri, Rəsul Rzaları, Musa Yaqubları, Zəlimxanları və bir cox Azərbaycan şairlərini yetişdirən torpaq Yaqubları da yetişdirib,

Qələmini əlinə yalnız yazmaq xatirinə almayan şairin, kitaba toplanan şeirləri bədiiliyi, dolğunluğu, mövzu rəngarəngliyi ilə də seçilməkdədir.

Yaqub müəllimin poeziyasının dərin qatlarına baş vurduqca, görürəm ki, o "12-ci uğur" kitabını oxucularına qiymətli hədiyyə olaraq təqdim edib. Və bir daha inanıram ki, oxucuların ixtiyarına verilən sayca "12-ci uğur" Yaqub müəllimin axırıncı deyil daha yeni bir kitabının axarıncısı olacaq.

Gözəl qələm sahibi, istedadlı şair, səmimi insan olan Yaqub Salmanın uğurlarının davamlı, canının sağlam və gümrah, olması diləyi və arzusu ilə:

**Həmidə Fazilqızı,**
**şair-publisist, Azərbaycan Jurnalistlər birliyinin üzvü**

# ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ RƏSM SƏRGİSİ DƏ KEÇİRİLDİ

**Hər yerdə olduğu kimi, Şirvan şəhər A.Hüseynzadə adına 4 nömrəli məktəbdə də Zəfər Gününə həsr olunmuş tədbir keçirilmişdir.**

Məktəbin direktor əvəzi Məharət Mustafayev çıxış edərək müzəffər ordumuzun 44 günlük qələbəsindən söz açmış, qazilərimizə can sağlığı şəhidlərimizə allahdan rəhmət diləmişdir. Sonra şagirdlərin bu Zəfər Gününə həsr edilmiş rəsm sərgisi də keçirildi. Əsərlərdə dilbər güşəmiz olan Qarabağın təbiəti, florası, faunası və memarlıq abidələri yen almışdı.



Şagirdlərdən R.Kənanın, Ş.Fatimənin,Ç.Vəfanın əl işləri nümayiş edilirdi. Qeyd etmək lazımdır ki, R.Kənanın əl işi bəyənilmiş və o Şirvan şəhər Rəsm Qalereyası tərəfindən fəxri fərmanla təltif olunmuşdur.

Sonda məktəbin müəllim və şagird kollektivi Şəhidlər Xiyabanının ziyarət etmiş, şəhidlərimizin ruhuna dulara oxunmuş və məzarları üçtünə gül-çiçək dəstələri qoyulmuşdur.

**Günel HEYDƏROVA,**
**məktəbin incəsənət müəllimi**



**Foto etüd: Payız gəldi...**

## ETIBARSIZDIR

«VÜSAL-4» fərdi kiçik müəssisəsinin möhrü itdiyi üçün etibarsız sayılır.
(Təsisçi Saqiyev Akif Fərzulla oğludur)

## «İŞIQ»- 2022
## ƏZİZ OXUCULAR!

Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a 2022-ci ilin 1-ci 6-ayı üçün abunə yazılışına başlanmışdır. 6 aylıq abunə haqqı 14 manatdır.
«İşıq»a 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN -21001044521. İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

## ALLAH RƏHMƏT ELƏSİN

Fəxrəddin Rəhimov, Akif Abbasov və Rafiq Rəsulov dostları Həsən Cabbarova anası

**Şahpəri xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650